Açıq dərslər Bakı şəhərindəki Şagirdlərin Ekoloji Tərbiyə və Təcrübəçilik mərkəzləri üzvlərinin, Bakı Dövlət Universitetinin Ekologiya və torpaqşünaslıq fakültəsi tələbələrinin iştirakı ilə keçirilib.

Ümumtəhsil məktəblərinin təbiət fənləri (biologiya, kimya, coğrafiya) müəllimlərinin və 6-8-ci sinif şagirdlərinin iştirak etdiyi açıq dərslər Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin əməkdaşları tərəfindən xüsusi hazırlanmış əyani vəsaitlər, elektron təqdimatlar, metodiki materiallardan istifadə olunmaqla, interaktiv müzakirələr şəraitində keçirilib.

Tədbirdə Xəzər rayonunun 30 ümumtəhsil məktəbindən 750 şagird ekologiyanın əsasları, qlobal ekoloji problemlər və ətraf mühitin mühafizəsi barədə məlumatlandırıblar.